# İŞĞALDAN AZAD EDİLMİŞ TORPAQLARDA TƏBİİ BİTKİ ÖRTÜYÜNÜN BƏRPASI HAQQINDA

**Afiq Qaziyev, Şəbnəm Əşrəfova, İlhamə Mircəlallı, Hicran Atayeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu,*
*shabnam_ashrafova@mail.ru*

Qoruqlar təbiəti mühafizənin ən yaxşı formalarından biri olub, elm, mədəniyyət və təsərrüfat üçün müstəsna əhəmiyyətə malikdir.

İşğaldan azad edilmiş ərazilərdə yerləşən Bəsitçay və Qaragöl Dövlət qoruqları xüsusi əhəmiyyət kəsb edir. Bəsitçay qoruğu 4 iyul 1974-cü il tarixində Zəngilan rayonunda ərazinin landşaft kompleksini, xüsusilə nadir təbii çinar meşəliyini qorumaq məqsədilə təşkil edilmişdir. Ərazinin 79,4%-nin meşə ilə örtülü olmasına baxmayaraq, meşələrin böyük hissəsi erməni işğalçıları tərəfindən məhv edilmişdir. Bəsitçay Dövlət qoruğunun mövcud vəziyyətinin qiymətləndirilməsi haqqında AR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına əsasən, qoruğa aid olan 85 hektar meşə ilə örtülü sahənin 42 hektardan çox hissəsi tamamilə məhv edilmişdir. Qiymətli Şərq çinarı ağacları kəsilmiş, ərazidə yanğınlar törədilmiş, çinarların köklərinin itirilməsi üçün müxtəlif partladıcı maddələrdən istifadə edilmişdir. Qoruğun inzibati binası dağıdılmışdır.

Hazırda azad edilmiş bu ərazinin iqlim şəraiti Şərq çinarı meşəliyinin təbii bərpası və inkişafı üçün çox əlverişlidir. Azərbaycan Respublikasının "Qırmızı kitab"ına düşən Şərq çinarı növü tarixən təbii olaraq yaranmış, meşəliklərdə toxum və pöhrələr vasitəsilə yayılmışdır. Növün bu bioloji yayılma xüsusiyyətindən istifadə etməklə onun təbii arealının bərpası həyata keçirilə bilər.

Qaragöl Dövlət Təbiət qoruğu 17 oktyabr 1987-ci ildə yaradılmış və respublikalararası (Azərbaycan və Ermənistan) dövlət qoruğu elan edilmişdir. Yüksək dağ göllərindən biridir və Alp landşaft kompleksinə, mühüm hidroloji və təsərrüfat əhəmiyyətinə malikdir.

Qoruğun bitki örtüyü zəngin deyil. Bitki nümunələrinin azlığı qoruğun quru sahəsinin kiçik olması, xüsusilə nadir və endemik bitkilərin onun sərhədlərindən kənarda qalması ilə əlaqədardır. Ərazidə bitki örtüyünün inkişafına və zənginliyinə uzun illər qoyun sürülərinin otarılması və suvarmaya gətirilməsi nəticəsində tapdalanaraq korlanması xeyli mənfi təsir göstərmişdir.

Qoruqda müasir vəziyyət qənaətbəxş deyil. Ətraf çəmənliklərin sistemsiz olaraq daim otarılması nəticəsində bitki örtüyü korlanmışdır. Gölün Ermənistan sahillərində heyvandarlıq fermalarının inşa edilməsi, göldə güclü nasos stansiyaları tikərək suyundan Gorus rayonunun əkin sahələrinin suvarılmasında istifadə olunması həm gölün çirklənməsinə və səviyyəsinin aşağı düşməsinə səbəb olmuş, gölün suyundan intensiv istifadə qarşısıalınmaz neqativ vəziyyətə gətirib çıxarmışdır.

Qeyd olunanları nəzərə alaraq, Dendrologiya İnstitutunun çoxillik təcrübəsindən istifadə etməklə həmin qoruqların təbii landşaftının və zənginliyinin bərpası mümkündür.